# MƏXFİ NÜFUZ

## *hekayə*

*(Əvvəli ötən sayımızda)*

Təcrübə apararkən professor otağa gəldi. İşimə diqqətlə baxdı, cihazların göstəricilərini və mənim iş dəftərindəki qeydlərimi nəzərdən keçirdi.

- Sənə tapşırılan işə məsuliyyətlə yanaş. Direktorun ünvanına dilindən tənqidi söz çıxmasın. Disser-tasiyanı isə mümkün qədər qısa müddətdə yaz. Sən bizdə yazıçısan, çalışsan tez yaza bilərsən. Verərsən baxım, elmi rəhbərəm, baxmalıyam.

Elm mərkəzində işləyən qaynım elmi işlər üzrə direktor müavini haqda yubiley məqaləsi yazmağımı xahiş elədi. Qaynımdan müavin haqda ürəkbulandıran nəsə eşitməmişdim. Həmin akademik, yəni müavin qaynımın elmi rəhbəri olub. Razılıq verdim. Sonra qaynım məqalənin mənim yazacağımı müavinə deyib. O razılaşıb, məqalələrimdən, kitabımdan xəbəri varmış. Yazını bitirəndə müavin baxmaq istədi. Şişirtməni, filanı xoşlayan deyilmiş. Məqalə "Dan ulduzu"nda çıxanda müavin öz minnətdarlığını qaynım vasitəsilə ikinci dəfə mənə çatdırdı. Şöbə redaktoru isə məni redaksiyaya işə dəvət elədi. Elm, texnologiya, texnika mövzuları ürzə yazmaq mənə həvalə edilirdi. Buna da şərti razılıq verdim. Elmi iş ürəyimcədi. Sifarışlərini vaxtım olanda yerinə yetirərəm.

Gündüzlər dissertasiya yazmağa imkan yox idi, işdən baş açmaq olmurdu. Bir dəstənin təcrübələrini aparırdım, digər dəstəninsə təcrübələrinə nəzarət edirdim, professorun tapşırığına görə. Nələrsə ortaya çıxırdı, gözlənilmədən. Yazmağım gecələrə qalırdı. Səhər işə gecikdim. Gec oyandım, metro qatarında hadisə baş verdi. Mənə töhmət verildi. Deyildi ki, ərizəmi yazım, öz xoşumla işdəm çıxım. Əks halda xoşa-gəlməz nələrsə baş verə bilər.

İnanmaq istəmədim. Yaxın iş yoldaşlarına bunun səbəbini gizlicə araşdırmağı tapşırdım. Haqqında məqalə yazdığım müavin direktorumuzun dostu imiş. Yubiley məqaləsinin onun imzası ilə dərci ürəyindən keçibmiş. Məqalə onun səbir kasasını daşıdan sonuncu damla olubmuş. Professoru bu haqda məlumatlandırdım. Qanı qara idi. Əsəbi halda dinlədi, axırda fikrini qısaca söylədi:

- Səni xəbərdar eləmişdim, indi özün bilən olsun.

Olsun da. Direktor öz şəxsi mənafeyinə qulluq edirsə, arxasında dayanan vəzifəlilər də onun tayıdırsa ... yox, şikayət, məhkəmə boş şeydi. Əsəb, zaman itirən deyiləm. Orta maaşla belə ağır elmi işə imkan veril-mirsə, pul qazanmaqla məşğul olaram. Redaksiyada işə düzəldim, nəşriyyatla müqavilə bağladım.

Yaxın yoldaşlar institutdan getməyimə təəssüflənir, hərdən əlaqə saxlayaraq xəbərləri çatdırırdılar. Professorun məni soyuq dinləməsinin səbəbi açıldı. Hər ikimizdən - direktordan da, məndən də incikli imiş. Direktordan haqsızlığına, məndənsə məsləhətini qulaqardına vurduğumu düşündüyünə görə. Mənim işdən çıxarılmağıma professor kəskin surətdə direktora etiraz edibmiş. Son sözü belə olub, şöbəmizə məni kimisini tapsın, sonra mənə toxunsun. Bir də deyib ki, işləyən gənclərə bu cür münasibəindən yuxarıdakılar xəbər tutsa peşimançılıq ola bilər. İnstitutda haqqımda məxfi də olsa müsbət rəy dolaşırmış. Bu işdə professorun da rolu az deyilmiş.

Olan oldu, keçən keçdi. Mənim üçün əsas o idi ki, işlərim qaydasında gedirdi. Xoşladığım və bacardığım işlə məşğul idim. Maaş, qonorar yerli yerində. Avtomobil aldım, son modelindən. Yayda yaxşıca istirahət elədim, ailəmlə. Maşınla bulaqlarda, şəlalələrdə, dağlarda, meşələrdə olduq. Çoxdandı belə istirahət elə-məmişdik. Hamımız nə vaxtdan həsrətində olsaq da belə istirahətə elmi işçi maaşı imkan vermirdi. Növbəti yayı da beləcə keçirməyi boynuma qoydular, söz verdim. Belə yaşamağın da ayrı ləzzəti varmış.

Şöbə redaktorunun tapşırığı üzrə iş dalınca getməyə hazırlaşırdım. Birdəfəlik plastik stəkanı sərin bu-laq suyu ilə dolduraraq içib qovluğumu masadan götürdüm. Otaqdan çıxanda masadakı xidməti telefon zəng çaldı, geri qayıtdım. İnstitutdakı yaxın yoldaş idi. Bir-birimizdən hal-əhval tutduq, yay istirahətimizdən danışdıq. Cavanlıqda həvəskar kimi alpinizmlə məşğul olmuş direktorumuz yayda kimlərəsə qoşulub doğma kəndi yaxınlığındakı çox da hündür olmayan qayaya dırmaşanda yıxıldığı, başında əməliyyat aparıldığı və yeni direktor təyin olunduğu xəbərini çatdırdı. Professor deyib ki, işimə qayıtmaq, dissertasiyamı müdafiə etmək istəyirəmsə ona zəng edim.

Heç bilmirdim neyləyim. Ailədə qayıtmamağı məsləhət bildilər. İstirahət günü dərman alıb anama apardım. Halını soruşdum. O üz-gözünü turşudaraq:

- Bu dərmanları qəbul eləməkdən, - gileyləndi, - cana yığılmışam, ay oğul. Alimlər böyrək daşını ərit-məyin təsirli yolunu tapsaydılar minlərlə, milyonlarla adamın canı əziyyətdən qurtarardı.

Gecə telekanalda əczaçı alimlərlə müsahibə vardı. Tədqiqatlarının praktiki cəhətdən nə dərəcədə perspektivli olmasından da danışdılar. Həmin anda onlar daha xoşbəxt görünürdülər. Anamın sancıları yadıma düşdü. Tədqiqatlarımızın nəticəsinə görə ağ ciyər xəstəliklərindən birinin müalicəsinə yol açılırdı. Hazırladığımız preparatın sınaqları əla keçmişdi. Gecə yarısı professora zəng çaldım.

***Rəsul RƏXŞANLI***
***İyul, 2018-ci il.***